# Yel Universiteti

Yel Universiteti (Yale University ) ABŞ-ın üçüncü ən qədim universitetidir və Amerikanın Konnektikut ştatında, Nyu-Heyven şəhərində yerləşir. 300 ildən artıq tarixə malik olan bu təhsil ocağını 5 ABŞ prezidenti, ABŞ Konqresinin 500-dən artıq üzvü, xeyli sayda hüquqşünas və diplomat bitirib. Ali məktəb Böyük Britaniyanın "Times Higher Education World Reputasion" jurnalının 2016-cı il üzrə reytinq sıralamasında 8-ci, "QS University Subject Rankings" nəşrinin 2015-2016-cı tədris ili üçün dünya universitetlərinin reytinq cədvəlində 15-ci, ABŞ-ın milli universitetlərinin reytinqində isə 3-cü yerdədir. Yel Universiteti Braun, Kolumbiya, Kornell, Prinston, Pensilvaniya, Harvard universitetləri və Dartmut Kolleci ilə birlikdə Sarmaşıq Liqasının üzvüdür.

**Yerləşir:** ABŞ, Konnektikut ştatı, Nyu-Heyven şəhəri
**Yaranma tarixi:** 9 oktyabr 1701-ci il
**Tipi:** Özəl
**Akademik heyət:** 4410 nəfər
**Tələbələrin ümumi sayı:** 12312 nəfər
**Rəsmi saytı:** www.yale.edu





Universitetin prezidenti tələbə idmançılarla



Yel Universitetinin kitabxanası



Universitetin 2016-cı il məzunları

## Tarixi

Yel Universitetinin tarixi 1640-cı ildən başlayır. Həmin il müstəmləkəçi keşişlər Avropanın liberal təhsil ənənələrini Amerikada saxlamaq məqsədilə Nyu-Heyven şəhərində kollec açmağa cəhd ediblər. Lakin onların bu arzusu 1701-ci ildə həyata keçib. Yeni yaradılan məktəbin ilkin adı Kollegial kollec olub və Killinqvort ərazisində yerləşib. Həmin il gənclərin kilsədə və dövlət işlərində çalışmaları, eləcə də kollecdə humanitar və təbiət elmləri üzə tədrisin təşkil edilməsi məqsədilə ali məktəbin nizamnaməsi təsdiqlənib. 1716-cı ildə kollec Nyu-Heyven şəhərinə köçürülüb. 1718-ci ildə məktəbin adı dəyişdirilir və məhz bu ildən məktəb ticarətdən əldə etdiyi gəlirini, 417 kitabını və kral I Corcun şəklini kollecə bağışlayan uesli tacir-filantrop Elayhu Yelin şərəfinə Yel Kolleci adlanır.

Yel Koleci yaradıldığı vaxtdan ötən 100 il ərzində sürətlə inkişaf edib. XIX-XX əsrlərdə kollecin ərazisində bir neçə ali və peşə məktəbləri açılıb və Yel Kollecinin universitetə çevrilməsi prosesi başlayıb. Belə ki, 1810-cu ildə Yel Tibb Məktəbi, 1822-ci ildə İlahiyyat Məktəbi, 1824-cü ildə Hüquq Məktəbi, 1847-ci ildə Humanitar və Təbiət Elmləri Ali Məktəbi (bu məktəb 1861-ci ildə ABŞ-da ilk fəlsəfə doktoru elmi dərəcəsini verib), 1869-cu ildə İncəsənət Məktəbi, 1894-cü ildə Musiqi, 1900-cu ildə Meşə Təsərrüfatı və ətraf mühit, 1923-cü ildə Tibb bacısı, 1955-ci ildə Dram, 1972-ci ildə Memarlıq və 1974-cü ildə İdarəçilik məktəbləri açılıb. Ali məktəbin Latın Amerikasından olan ilk əcnəbi tələbələri universitetə 1830-cu ildə qəbul edilib. Hazırda universitet tələbələrinin təxminən 20 faizini əcnəbi tələbələr təşkil edir. Qız tələbələr Yel Universitetinin fəlsəfə doktorluğuna ilk dəfə 1869-cu ildə, bakalavriat səviyyəsinə isə 1969-cu ildə qəbul edilib. Yel Universiteti 1940-cı ilin əvvəllərindən, xüsusilə ərazisində yaşayış kolleclərinin tikintisindən sonra dəyişməyə başlayıb. Universitetin hazırkı yaşayış kolleci sistemi 1933-cü ildə bu təhsil ocağının məzunu Edvard Harknesin qrantı hesabına yaradılıb. E.Harknesin Oksford və Kembric universitetlərinin yaşayış sistemini bəyənməsi səbəbindən Yel Universitetinin yaşayış sistemi də bu universitetlərə oxşar qurulub.

## Universitet bu gün

Yel Universitetinin yerləşdiyi Nyu-Heyven şəhəri Konnektikut ştatının ikinci, Yeni İngiltərə bölgəsinin isə altıncı ən iri şəhəridir. Nyu-Heyven iqtisadiyyatının təməlini səhiyyə, peşə və maliyyə xidmətləri, eləcə də pərakəndə ticarət sahələri təşkil edir. Şəhər həm də ali təhsil mərkəzi kimi tanınır. Burada Cənubi Konnektikut Dövlət Universiteti, Albertus Maqnus Kolleci, Kuinnipek Universiteti və Rayer İncəsənət Kolleci yerləşir. Yel Universiteti adıçəkilən ali təhsil ocaqları arasında özünəməxsus yer tutur. Universitetin mərkəzi kampusu 125 hektar (310 akr) ərazini əhatə edir. Yel Universitetinin ümumilikdə 439 binası var. Universitetin Qərb Kampusu 136 akr ərazidən ibarətdir və Nyu-Heyven şəhərindən qərbdə yerləşir. Universitetin həmçinin 243 hektardan çox (600 akr) ərazini əhatə edən idman meydançaları mövcuddur. Yel Universitetinə Yel Kolleci, Humanitar və Təbiət Elmləri Ali Məktəbi, peşə məktəbləri və Dini Musiqi İnstitutu daxildir. Universitetin ən məşhur peşə məktəbləri arasında Hüquq, İdarəçilik, Tibb, İncəsənət və Tibb bacısı məktəblərini qeyd etmək olar. Dram, Meşə Təsərrüfatı və Ətraf Mühit, həmçinin İlahiyyat məktəbləri də öz tələbələrinə yüksək səviyyəli tədris proqramları təklif edir. Yel Kolleci 1718-ci ildən 1887-ci ilə kimi Yel Universitetinin rəsmi adı olub. Kollec universitetin ən qədim və böyük məktəbidir. Yel Kollecinin missiyası dünyanın hər yerindən və istənilən millətindən olan yüksək intellektli tələbələri axtarıb tapmaq, onların intellektual və yaradıcı potensialını inkişaf etdirməkdir. Humanitar elmlərin tədrisini həyata keçirən kollec tələbələrə oxumaq həvəsi, müstəqillik və liderlik hissləri aşılayır. Humanitar və Təbiət Elmləri Ali Məktəbi 1847-ci ildə fəlsəfə və humanitar elmlər departamenti kimi fəaliyyət göstərib. Fəaliyyətə başladığı ilk tədris ilində məktəbin 11 tələbəsi olub. Həmin vaxt məktəbdə kimya və metallurgiya, memarlıq elmi, yunan və latın ədəbiyyatı, riyaziyyat, filologiya və ərəb dili üzrə seminarlar təşkil edilib. 1892-ci ildə fəlsəfə və humanitar elmlər departamentinin adı dəyişdirilərək Humanitar və Təbiət Elmləri Ali Məktəbi adlandırılıb. Ali təhsil ocağı humanitar, sosial, bioloji, fiziki elmlər, mühəndislik üzrə doktorluq dərəcələri və fəlsəfə elmləri doktoru dərəcəsinin verilməsi üzrə proqramlar təklif edir. Bundan başqa, tələbələrə fəlsəfə, humanitar və təbiət elmləri magistri dərəcələri də verilir. Universitetdə 12 peşə məktəbi və bir institut fəaliyyət göstərir. Universitetin peşə məktəbləri aşağıdakılardır: Yel Tibb Məktəbi (1810), Yel İlahiyyat Məktəbi (1822), Yel Hüquq Məktəbi (1824), Yel Mühəndislik və Tətbiqi Elmlər Məktəbi (1852), Yel Rəssamlıq Məktəbi (1832), Yel Musiqi Məktəbi (1894), Yel Meşə Təsərrüfatı və Ətraf Mühit Məktəbi (1900), İctimai Səhiyyə Məktəbi (1915), Yel Tibb Bacısı Məktəbi (1923), Yel Dram Məktəbi (1924), Yel Memarlıq Məktəbi (1959), Yel İdarəçilik Məktəbi (1974). Bundan əlavə, Yel Universitetində Dini Musiqi İnstitutu fəaliyyət göstərir. Bu institut öz mənşəyini Nyu-Yorkda İlahiyyat seminariyasında yaradılmış Dini Musiqi İnstitutundan götürür. İnstitut tələbələrə orqan ifaçılığı, xor dirijorluğu, liturgiya üzrə tədqiqatlar, din və incəsənət üzrə tədris proqramları təklif edir. Universitetdə Yay sessiyası və Dünya Təqaüdçüləri Proqramı təqdim edilir. Yel Yay Sessiyası dünya ölkələrindən olan tələbələr üçün yay məktəbi təşkil edir. Yel Universitetinin Dünya Təqaüdçüləri proqramı ali təhsilli şəxslər üçün nəzərdə tutulub. Proqramın məqsədi gənc dünya liderlərinin qlobal şəbəkəsini inkişaf etdirmək, tələbələrin və universitetin müəllim heyətinin təcrübəsini zənginləşdirməkdir.

Yel Universitetində 84 elmi-tədqiqat mərkəzi fəaliyyət göstərir. Buraya Yel İnanc və Mədəniyyət, Beynəlxalq Maliyyə, Tibb və Səhiyyə Elmləri, Qaraciyər, Klinik Araşdırmalar mərkəzləri və s. daxildir. Yel Universitetinin kitabxanası Harvard Universiteti kitabxanasından sonra ABŞ-da ikinci ən iri kitabxana hesab edilir. Burada təxminən 1.5 milyon cild kitab saxlanılır. Universitetin Sterling Memorial Kitabxanasında təxminən 4 milyon cild kitab var.

## İdarəçilik

Yel Universitetinə rəhbərlik prezident tərəfindən həyata keçirilir. Universitetin 1701-ci ildə qəbul edilmiş nizamnaməsi 1792-ci ildə Konnektikut ştatının qanunvericilik orqanı tərəfindən dəyişdirilib. Universitetin professor və məsul şəxslərinin vəzifələri Yel Korporasiyası tərəfindən müəyyən edilir. Hazırda korporasiyanın 19 üzvü var. Universitetin prezidenti Piter Soloveydir. Ali məktəbdə ümumilikdə 9085 nəfər işçi çalışır. Onların 4410 nəfərini professor-müəllimlər təşkil edir. O cümlədən universitetdə 2065 əcnəbi alim işləyir. Yel Universitetində Amerikanın 50 ştatından və dünyanın 108 ölkəsindən 11660-dan çox tələbə təhsil alır. Ali məktəbin tələbə kontingenti hər biri təxminən 450 üzvdən ibarət 12 fərqli icmalara bölünür. Bu sistem universitetin tələbələrinə həm təhsil üçün şərait, həm də əsas tədqiqat ehtiyatlarından istifadə etmək imkanı yaradır. Hər məktəbin öz ərazisi, yataqxanası, müxtəlif elmi və ictimai tədbirlərin keçirilməsi üçün şəraiti, yeməkxanası, kitabxanası və seminar otaqları mövcuddur. Yel Universiteti öz tələbələrinə bir sıra xidmətlər təklif edir. Buraya qadın mərkəzləri, işədüzəltmə, sağlamlıq xidmətləri, tibbi sığorta daxildir. Universitetin auditoriyalarında tələbələrin sayı adətən 20-dən az olur. Ali məktəbdə ən geniş yayılmış ixtisaslara politologiya və idarəçilik, ümumi tarix, ümumi iqtisadiyyat, ümumi psixologiya və ümumi biologiya daxildir. Hər il universitetə təxminən 5310 tələbə daxil olur. Tələbələrin 88 faizi kollec ərazisində, 12 faizi isə universitetdən kənarda yaşayır. Universitet tələbələrinin 17 faizi dünyanın 107 ölkəsini təmsil edən əcnəbi tələbələrin payına düşür. Əcnəbi tələbələrin əksəriyyəti Çin, Kanada, Cənubi Koreya, Hindistan, Almaniya, Böyük Britaniyadandır. Yel Universiteti 2000-ci ildən etibarən distant təhsil təklif edir. Universitetin 5 mindən artıq onlayn təhsil alan məzunu var. Universitetə qəbul olunmaq üçün ali məktəbin rəsmi internet saytında onlayn ərizə doldurmaq lazımdır. Onlayn təqdim edilən ərizə üçün 75 ABŞ dolları məbləğində vəsait ödənməlidir. Bütün abituriyentlər SAT (Müvəffəqiyyət dərəcəsinin qiymətləndirilməsi testi) və SAT II (Biliyin konkret fənn üzrə öyrənilməsi) imtahanı verməlidir. Yel Universitetinə qəbul olmaq istəyən əcnəbi tələbələr TOEFL imtahanının nəticələrini (600-250 bal) təqdim etməli və ya İELTS imtahanı üzrə ən azı 7 bal toplamalıdırlar.

## Büdcəsi və təhsil haqları

2016-2017-ci tədris ili üçün Yel Universitetində illik təhsil haqqı 49480 dollar müəyyən olunub. Digər zəruri xərclər də nəzərə alınsa illik təhsil haqqı 64650 dollara çatır. 2015-ci ildə universitetin endaument fondunun həcmi 25 milyard 572 milyon dollara çatıb. Universitetdə akademik heyət 4410 nəfər təşkil edir. Tələbələrin ümumi sayı 12312 nəfərdir. Onlardan 5453 nəfər bakalavr, 6859 nəfər aspirantlardır. Yel Universitetinin 30 iyun 2015-ci il tarixinə gəlirlərinin ümumi həcmi 3.297.677000, xərclərinin ümumi həcmi 3.221.788000 dollar təşkil edib. Bu dövrə olan məlumata görə, Yel Universitetinin illik büdcəsi 2014-cü illə müqayisədə 1.6 milyard dollar (6.1 faiz) artaraq 27.4 milyard dollar təşkil edib.

## Universitetin məşhurları

Yel Universiteti Harvard və Prinston universitetləri ilə birlikdə ölkənin ən nüfuzlu ali məktəblərini birləşdirən "Böyük üçlük"-ə daxildir. Ali məktəbin çoxsaylı məşhur məzunları arasında 52 Nobel, 5 nəfər riyaziyyat üzrə Filds mükafatçıları var. 1989-cu ildən başlayaraq ABŞ-ın bütün prezidentləri Yel Universitetinin məzunları olub. ABŞ-ın 27-ci prezidenti Taft Hobard (1909-1913), 38-ci prezidenti Ford Cerald Rudolf (1974-1977), 41-ci prezidenti Corc Herbert Uoiker Buş (1989-1993), 42-ci prezident Bill Klinton (1993-2001), eləcə də onun həyat yoldaşı, ABŞ-ın hazırkı prezidentliyə namizəd, sabiq dövlət katibi Hillari Klinton, 43-cü prezident Corc Uolker Buş (2001-2009) Amerikanın keçmiş vitse-prezidenti Riçard Dik Çeyni də bu ali məktəbin məzunlarındandır. Almaniyanın federal prezidenti Karl Karstens (1979-1984), Filippin prezidenti Laurel Xose (1943-1945), İtaliyanın Nazirlər Şurasının sədri Mario Monti (2011-2012), Meksika prezidenti Ernesto Sedilo (1994-2000), Türkiyənin ilk qadın baş naziri Tansu Çillər (1993-1996) Yelin məzunları olub. Morze əlifbasının ixtiraçısı Samuel Morzeni, məşhur uşaq psixoloqu Benjamin Spoku, yazıçı Sinkler Lyuisi, iqtisadçı Corc Akerlofu, jurnalist və yazıçı Bob Vudvardı, "Pepsi" kompaniyasının prezidenti İndra Krisnamurti Nuyini, CBS telekompaniyasının prezidenti Erik Oberi, "Boinq" kompaniyasının direktorlar şurasının sədri Ceyms Mak Nerni də Yel Universitetinin tanınmış məzunlarındandır. Universitetin Nobel mükafatı almış məzunlarından ədəbiyyat üzrə Amerikanın ilk Nobel mükafatı laureatı Lyüs Sinkler, Corc Akerlof (2001-iqtisadiyyat), Uilyam Vikri (1996-iqtisadiyyat), Pol Kruqman (iqtisadiyyat-2008), Piter Daymont (iqtisadiyyat - 2010), Alfred Gilman (fiziologiya və tibb-1994), Erik Vişaus (fiziologiya və tibb- 1995), Müreyy Hel-Mann (fizika-1969), eləcə də Coşua Lederberq, Morris Devid Li, Orlando Lourens, Edmund Felps və Franklin Endersin adlarını çəkmək olar.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*